# Rusiyada Azərbaycan diaspor mətbuatı

Rusiyada fəaliyyət göstərən diaspor təşkilatlarımız xeyli vaxtdır ki, azərbaycançılığın, Azərbaycan-Qarabağ həqiqətlərinin, adət-ənənələrimizin geniş ictimaiyyətə çatdırılmasında təsis etdikləri qəzet və jurnalların potensialından səmərəli şəkildə istifadə edirlər. Uzun illər şimal qonşumuz olan Rusiyada diaspor təşkilatlarımızın fəaliyyətini araşdırmaqla məşğul olan, bu istiqamətdə çoxsaylı kitabların müəllifi yazıçı-publisist Ramin Məmmədovla olan söhbətimdə də bu aktual məsələyə toxundum. O bildirdi ki, Rusiya kimi çoxmillətli ölkədə mühacirət həyatı yaşamağın, üstəlik qəzet, jurnal nəşr etdirib təbliğat aparmağın nə qədər çətin və məsuliyyətli bir iş olduğunu bəlkə də çoxları bilmir. Belə ziddiyyətli cəmiyyətdə milli problemlər tez-tez qabardılaraq "sizinkilər gəlib yerlərimizi tutublar, özümüzə iş tapa bilmirik", "sizinkilər burda ancaq cinayət törətməklə məşğuldurlar", "sizinkilər bizim hesabımıza orada özlərinə villalar tikirlər" kimi atmacalarla ölkənin aparıcı mətbuat səhifələrindən adamlarımıza psixoloji təsir göstərməyə, azərbaycanlıları basqı altında saxlamağa çalışırlar. Onsuz da problemli olan qonşu ölkə ictimaiyyətində gərginlik yaratmaq üçün mətbuatın nüfuzundan istifadə etmək məqsədini güdür. Belə atmacaların təsirindən diaspor qəzetlərimiz nəinki daha çox beynəlmiləlçilikdən yazmalı olur, hətta belə dərgiyə götürdükləri epiqrafla da nəyisə sübut etməyə çalışırlar. Götürək "Çoxmillətli Peterburq" şüarı altında çıxan "Vmeste" qəzetini. "Bizim gücümüz dostluqdadır" məqaləsində rus və tatar xalqlarının qırılmaz dostluq əlaqələrindən danışılır. "Gəlin unutmayaq" yazısında oxuyuruq ki, Leninqrad faşistlər tərəfindən tam mühasirəyə alındıqdan düz qırx gün sonra, hər tərəfdə güllə səsi, bomba partlayışı eşidildiyi bir vaxtda Ermitajda dahi Nizaminin 800 illik yubileyi keçirilmişdir. Qəzetdə digər yazı isə "Ədəbiyyat səhifəsi" adlanır. Və burda "Nizami yaradıcılığının sirri", "Sabirin seçilmiş satiraları", "Puşkin və müqəddəs Quran" kimi dəyərli məqalələr təqdim olunmuşdur.

Tümendə təsis olunmuş "Dostluq-Drujba"qəzeti eyni adlı diaspor cəmiyyətinin yaranma tarixilə oxucuları tanış edən "Dostluq-Drujba"nın 10 illik yubileyi" məqaləsini birinci səhifəsində yerləşdirib. Materialda qürur doğuran məlumatlar sırasında belə cümlə də var: "Artıq dövlət səviyyəsində Azərbaycan diasporu tanınır, təşkilatımızın mövqeyi ilə hesablaşırlar. Qubernator administrasiyasında həmyerlimiz Elşən Cəfərov çalışır, "Dostluq-Drujba" İctimai Birliyinin sədri Cəmşid Fətullayev, soydaşlarımızın ağsaqqalı kimi tanınmış xeyriyyəçi, biznesmen Fizuli Burcuyev, hüquqşünas-jurnalist Şakir Nəsirov və başqa eloğlularımız xalqımızı ləyaqətlə təmsil edirlər".

Ümumiyyətlə, Rusiya-Azərbaycan arasında yeni mərhələdə inkişaf edən xoş münasibətlərin genişlənməsinə diaspor mətbuatımızda da geniş yer verilir. Xantı-Mansiyskdə həmyerlilərimizin qanuni qeydə alınmış "Birlik" adlı diaspor cəmiyyətinin "Birlik" qəzeti təşkilatın sədri Valeh Adıgözəlbəyovun Yeni il münasibətilə təbrik müraciəti ilə başlayır.

Cəmiyyətin rəhbəri sevinclə vurğulayır ki, son zamanlar iki dost ölkənin gələcəyi naminə xeyli iş görülüb. Biz hamımız bu müqəddəs işin inkişafı üçün əlimizdən gələni etməliyik ki, dostluğumuz daha da möhkəmlənsin.

Böyük nemətimiz olan, müxtəlif sahələrdə adsan qazanaraq öz səmərəli fəaliyyəti ilə əbədiyaşarlıq hüququ qazanmış görkəmlişəxsiyyətlərimiz Rusiyada Azərbaycan diaspor mətbuatı səhifələrində mütəmadi surətdə publisistik və elmi-publisistik yazılar vasitəsilə oxuculara təqdim olunurlar. "Ərəblinski nəslinin davamçıları" ("Asudə vaxt" qəzeti) adlı böyük məqalə Rusiya İmperiyası general-leytenantı, 1828-ci ildə Zaqatalanın Tala kəndində doğulmuş Balakişi Əlibəy oğlu Ərəblinskinin mənalı həyat yoluna həsr olunmuşdur. Maraqlı məqamlar kimi diqqətə çatdırılır ki, generalın nəvə-nəticələri, tibb elmləri doktoru, professor Vladimir Ərəblinski, kardioloq-həkim Aleksandr Ərəblinski, tibb elmləri doktoru Andrey Ərəblinski və b. Moskvada yaşayır və fəaliyyət göstərirlər.

"Qəhrəmanlar əbədi yaşayır", "Məhəmməd Peyğəmbər Allahın elçisidir", "Dahi Nizami Gəncəvi", "Alla Axundova yaradıcılığı, "Molla Nəsrəddin-100" ("Oqni vostoka" qəzeti məqalələrində oxucular üçün faydalı məlumatlar göz önünə çəkilir. Qəzetin həmin sayında Belqorod Kənd Təsərrüfatı Akademiyası mühəndis fakültəsinin dosenti Arif Əli oğlu Məmmədovun müsahibəsi də dərc olunmuşdur.

Rusiyadakı diaspor birliklərimizin mətbuatı xalqımızın taleyində, tarixində baş vermiş müxtəlif hadisələrə və faciələrə öz səhifələrində lazımınca yer ayırır.

Daha dəqiq desək, "Azerbaydjanskiy Konqress v Tambove" qəzetinin 10 may 2008-ci il tarixli sayı bütövlüklə ümummilli liderimiz Heydər Əliyevin 85 illik yubileyinə həsr edilib. Amma dərginin birinci səhifəsində yuxarıda ayrı bir cümlə də yazılıb: "Ermənilər Azərbaycan ərazilərinə təcavüzü davam etdirir". Qəzet oxuculara çatdıqdan dərhal sonra yerli gənclər oradakı Azərbaycan diaspor təşkilatına müraciət edərək bu barədə bir qədər geniş məlumatın onlar üçün maraqlı olduğunu söyləyiblər. İcmanın fəalları onlara açıqlama verərək bildiriblər ki, Qarabağın Ermənistanla hətta sərhədi belə yoxdur, tarixən bölgə bütövlüklə Azərbaycanın tərkibindədir. Qədim vaxtlardan ermənilər Qarabağda yaşamayıblar, 1828-1829-cu illərdə İrandan bura köçürülüblər. Həmin gənclərə 1831-ci ildə Moskvada çap edilmiş S.N.Qlinkanın ermənilərin köçürülməsindən bəhs edən kitabı da hədiyyə olunub. Əlavə olaraq, ermənilərin törətdiyi terrorizmə, o cümlədən Xocalı faciəsinə dair də sənədli nəşrlər təqdim edilərək erməni vəhşilikləri barədə tam təsəvvür yaratmaq mümkün olub. Rusiyadakı nəşrlərimizin oxucu mühakiməsinə verdiyi yazıların böyük əksəriyyəti çox zaman belə geniş əks-səda doğurur, ictimaiyyətə həqiqətin, doğru məlumatların yayımlanmasını təmin edir.

Moskvada yerləşən və Rusiyanın əksər regionlarında yerli təşkilatları olan AMOR adlı gənclər İctimai Birliyinin rəhbəri Leyla xanım Əliyevanın baş redaktoru olduğu "Baku" jurnalı Rusiyada ən gənc, eyni zamanda kifayət qədər nüfuzlu diaspor kütləvi informasiya vasitələrindən biridir. Bu jurnal Azərbaycanımızın bənzərsiz tarixini, ədəbiyyat, incəsənət korifeylərimizi, qədim tarixə malik və o qədər də müasir görünüşü olan paytaxtımızın əsrlərin dərinliyindən bizə əmanət kimi gəlib çatmış abidələrin, mədəniyyətini, nadir eksponatlarla zəngin muzeylərini, Odlar Yurdunun son dövrdə nail olduğu irimiqyaslı nailiyyətlərini Rusiya məkanında, onun hüdudlarından çox-çox uzaqlarda təbliğ edən, yüksək poliqrafik tərtibatilə fərqlənən, rəngli illüstrasiyalarla çıxan yeganə jurnaldır. Üzeyir Hacıbəyov və Niyazi musiqisi, Behbudov və Maqomayev mahnıları, Bəhrəmov və Banişevski futbol möcüzələrini ayda bir dəfə öz oxucularını sevindirən jurnalın səhifələrində oxuya bilərik. Bir sözlə, "Baku" qısa zaman kəsiyində oxucular üçün Azərbaycanımızı olduğu kimi, bütün təkrarolunmaz gözəlliyi ilə təbliğ edən bir jurnala çevrilmişdir.

"Azerbaydjanskiy Konqress"in 11 aprel 2008-ci il tarixli sayında" verilmiş iki səhifəlik "Yoldaş Dövlət Komissiyasının sədri" adlı iki səhifəlik yazı SSRİ-nin kosmos sahəsinə uzun illər rəhbərlik etmiş general-leytenant, Sosialist Əməyi Qəhrəmanı mərhum Kərim Kərimovun həyat və fəaliyyətinə həsr olunmuşdur. Burda deyilir ki, K.Kərimovun rəhbərlik etdiyi Dövlət Komissiyasında necə yüksək dərəcəli elmi, mühəndis və texniki səviyyədə iş aparıldığını təsəvvür etmək üçün ayrı-ayrı vaxtlarda SSRİ EA-nın prezidenti M.V.Keldış, akademiklər V.P.Mişin, V.P.Qluşko, baş konstruktorlar S.P.Korolyov, N.A.Pelyuqin, V.N.Çelomey kimi dünya miqyasında tanınmış simaların onun müavinləri olduqlarını xatırlatmaq bəs edər.

Söhbətimizin sonunda Ramin Məmmədov dedi ki, indi biz fəxr edə bilərik ki, Rusiyada fəaliyyət göstərən diaspor icmalarımızın mətbuatı azərbaycançılığın, milli adət-ənənələrimizin, tariximizin, mədəniyyətimizin təbliği baxımından geniş iş aparır, bu istiqamətdə inadkarlıqla, Ana Vətənimiz olan Azərbaycanımızı sevərəkdən yazıb-yaradırlar, ürəkdən təbliğ edirlər. Onlara bu çətin və şərəfli yolda uğurlar arzulayırıq.

**Əlihüseyn ŞÜKÜROV.**